**79** müraciətdən **36-sı** ali və orta ixtisas təhsili müəssisələri ilə bağlı olub. Onlardan **24-ü** dövlət, **12-si** özəl ali və orta ixtisas təhsili müəssisələrinə aiddir. Ali və orta ixtisas təhsili müəssisələrinə dair müraciətlərin 15-i anonim xarakterlidir.

Müraciətlər məzmunca şikayət, təklif və sorğu xarakterli olub. Bütün müraciətlər araşdırılıb, sorğular cavablandırılıb, təkliflər isə müraciətlər ümumiləşdirilərkən təhlil olunaraq nəzərə alınacaq.

Ali və orta ixtisas təhsili müəssisələrində 2008-2009-cu tədris ilinin qış imtahan sessiyası dövründə "Qaynar xətt"ə daxil olan müraciətlər və görülmüş tədbirlər barədə məlumatlar cari ilin fevralında ictimaiyyətə çatdırılacaq.